Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Babam Şirin, Nənəm Nabat

8 fevral – Nənələr və Babalar günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı-2023**

Tərtibçi: Nərmin Qədəmullazadə

İxtisas redaktoru və buraxılışa məsul: Şəhla Qəmbərova
*Əməkdar Mədəniyyət işçisi*

Redaktor: Ruhiyyə Məmmədli

**Babam Şirin, Nənəm Nabat** - 8 fevral Nənələr və Babalar günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed.: N.Qədəmullazadə; ix.red. və burax.məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.-Bakı, 2023.-33s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

# Giriş



Azərbaycan xalqının mentalitetinə uyğun olaraq yaşlı insanlara qayğı göstərməyi cavan nəsil hər zaman özünə borc bilir. Bütün dünyada olduğu kimi Azərbaycanda da oktyabrın 1-i Beynəlxalq Ahıllar günü kimi qeyd olunur. Lakin nənə və baba olan insanlar üçün ayrıca bir gün müəyyən edilib. Ailələrimizin ağıllı, dünyagörüşlü böyüklərə – nənə və babaya həmişə ehtiyacı var. Həm böyük ağsaqqal-ağbirçək kimi, həm də nəvələrin böyüdülməsində və tərbiyə olunmasında ata-analarla bərabər bu iki şəxsin də zəhməti olur. Nənə və babalar təkcə bizim nağıl dünyamız deyil, həm də ağıl dünyamızdır. Bir çox Avropa ölkələrində "Nənələr və babalar" günü qeyd olunur. 2008-ci ildən 8 fevral günü Beynəlxalq nənələr və babalar günü kimi qəbul olunub və bu təşəbbüsü həm YUNESKO, həm də Avropa Birliyinin mədəniyyət üzrə komissiyaları dəstəkləyib. Həmin gün yaşından aslı olmayaraq nənə və babası olan hər kəs onların ziyarətinə gedir. "Nənələr və babalar" günü bir çox Avropa ölkələrində qeyd olunur. Fransada martın ilk bazar günü, İtaliyada oktyabrın ilk bazar günü, Estoniyada sentyabrın ikinci bazar günü, Polşada isə nənələr günü (21 yanvar) və

babalar günü (22 yanvar) ayrı-ayrı bayram edilir. Nənələr və babalar günü ilk dəfə Kanada sakinləri tərəfindən qeyd olunmağa başladı. Bu gün bütün ailə ənənəvi olaraq ən şərəfli yerin yaşlı nəslin nümayəndələrinə verildiyi masaya yığılır, çox vaxt bütün izdiham əyləncəli bir gəzintiyə çıxır. Polşada bu ecazkar bayram ardıcıl iki gün qeyd olunur və onlardan birində nənə nəvələrini evdə zəngin bir süfrədə qarşılayır və çay içdikdən sonra gəzintiyə çıxır. Nəvələr ümumiyyətlə bu tədbiri səbirsizliklə gözləyirlər və sonsuz əziz nənə və baba üçün kiçik sürprizlər hazırlayır, onları şeir təbrikləri və mahnıları ilə, xüsusi məhəbbətlə hazırlanmış əl işləri ilə sevindirirlər. Fransa da Avropanın geri qalan hissəsindən geri qalmır və bu gün uşaqlar, yaşlı nəsil ilə birlikdə, yerli turizm şirkətləri tərəfindən xüsusi olaraq onlar üçün təşkil edilən məhəllə ətrafında pulsuz bir səyahətə çıxırlar. Tətil ərəfəsində çox cəlbedici qiymətlərdə mallar olan xüsusi bölmələr və ümumiyyətlə mağazalarda nənə və babaların böyük hissəsi tərəfindən seçilən çeşidlərdə öz yerini tutur. Rusiyada Nənələr və babalar gününü qeyd etmək fikri Hollandiyadan gəldi. 2009-cu ildən bəri ruslar da nəsillərin qarşılıqlı məhəbbətini, ailə əlaqələrinin möhkəmləndiyi, əzizlərinin birliyini hiss etdikləri bu şirin isti bayramı qeyd edirlər. Bu günün keçirilməsinin ailə institutunun möhkəmlənməsində, nəsillərin bir-birini tanımasında və bir-birinə hörmət etməsində böyük əhəmiyyəti var.

## “Nənələr və Babalar” haqqında söylənilən kəlamlar

"Bir babanın təbəssümü, ən böyük sərvətlər arasında saxlanılacaq bir xəzinədir."

*Anton Vanligt*

"Nənə və babanın köhnə sözləri çox vaxt gizli bir mesajı gizlədir."

*Silviya Zonçeddu*

“Uşaqlar və nənələr bir xalqın ümididir. Uşaqlar, gənclər, bu xalqı da irəli aparacaqlar; və nənələr tarixin müdrikliyinə sahib olduqları üçün bir xalqın yaddaşıdır. "

*Papa Francis*

Uşaqların ən çox ehtiyac duyduğu şey, nənə və babanın şərtsiz sevgisi, xeyirxahlığı, həyat dərsləridir.

*Rudolph Giuliani*

Nənə və babalar bir şeyi sevmək və düzəltmək üçün yaradılmışdır. Övladlarını sevməyən atalar var, amma nəvəsini sevməyən baba yoxdur.

*Victor Hugo*

“Nənə və babalar super qəhrəman kimidirlər. Heç vaxt ölməməlidirlər. "

*Fausto Brizzi*

“Onlar keçmişin şahidi, bu günün zəmanəti və gələcəyin varisləridir. "

*Karmin De Masi*

# Kitabxanada keçirilən tədbirlər

8 fevral- Nənələr və Babalar günü ilə əlaqədar kitabxananada tədbir etmək məqsədəuyğundur. Kitabxanada bu gün ilə əlaqədar səhnəciklər, müsabiqələr, sual-cavab, şəkil sərgiləri  və s etmək olar.


























https://www.youtube.com/watch?v=DX1AIDl0EoE

## Sərgi ətrafında balaca oxucularımızla söhbət və kitab müzakirəsi

Metodist nağıl otağında oxucularla birlikdə kitab müzakirəsi edir. Müzakirədə nənə və babalara aid kitablar təhlil olunur.

Öncəliklə Qəşəm İsabəylinin *"Nənəm Təkdi"* kitabı haqqında danışaq. Kitab 2008-ci ildə Bakıda Şirvannəşrdə çap olunmuşdur. Kitab 84 səhifədən ibarətdir. Qəşəm İsabəyli kitabı maşın qəzasında həlak olan qardaşı Abdulbağı İsa oğluna və əmisi nəvəsi Həmiyyət Bahadur oğluna ithaf etmişdir.

Növbəti kitab Tofiq Mütəllibovun *"Kim İslandı Yağışda"* kitabıdır. Mənim ilk kitabım seriyasından olan kitab 4-7 yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. Kitabın rəsmlər və dizaynı Elçin Cabbarov və Səidə Eyvazova aiddir.

*"Anam, Nənəm, Bir Də Mən"* musiqi kitabında bir-birindən gözəl musiqilər var. Kitab 2004-cü ildə Şirvannəşrdə çap olunmuşdur. Musiqisi Oqtay Rəcəbova, sözləri isə Qəşəm İsabəyliyə aiddir. Kitabda Anam, Nənəm, Ay nənəli, Qonaq, Nənə, mübarək olsun və s. mahnılar var.

*"Kukla, yoxsa Aysu"* kitabı 1998-ci ildə "Azərbaycan nəşriyyatın"da çap olunmuşdur. Müəllifi Elçin olan kitabda maraqlı hekayələr, nağıllar, tapmacalar, yanıltmaclar var.

*"Qoğal"* nağıl kitabı 12 səhifədən ibarətdir. Kitab "Altun Kitab" nəşr evində çap olunmuşdur. Kitabın içindəki rəsmlər Elçin Cabbarov və Səidə Eyvazova aiddir. "Qoğal" nağılını www.mestan.az saytının "Oxu zalı"nda dinləyə bilərsiniz. Kitab 3-6 yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur.

“Qırmızı Papaq” nağıl kitabı Çində çap olunub. Kitab Andrea Petrlikin illüstrasiyaları ilə daha rəngarəng görünüşə sahib olub.

“Cırtdan” nağıl kitabı Qanun nəşriyyat və Əli və Nino nəşriyyatında çap olunmuşdur. Kitabda çəkilmiş rəsmlərin müəllifi isə Lalə Qasımova və Pərvin Həsənovadır.

Metodist məlumat verdikdən sonra həmin kitablar haqqında oxucularla sual-cavab edərək, məktəblilərin nə dərəcədə yeni biliklərə yiyələnmələrini öyrənmiş olur.

## Şəkil sərgisi

*“Məktəbli uşaqların gözündə nənə babaları”* adlı sərginin elanı 1 ay öncədən kitabxananın rəsmi səhifəsində paylaşılır. Sərgidə iştirak etmək istəyən məktəblilər öz əl işlərini tədbir rəhbərinə təqdim edirlər. Sonda ən gözəl əl işi kitabxana rəhbərliyi tərəfindən qiymətləndirilərək mükafatlandırılır. İndi isə sizə həmin şəkillərdən bir neçəsini təqdim edək:













## Nağıl müsabiqəsi

Kitabxananın nağıl otağında *"Can Nənə bir nağıl de"* adlı nağıl müsabiqəsi keçirmək olar. Müsabiqəyə göndərilən nağıl və ya hekayə uşağın düşüncələrinin, fantaziyasının məhsulu olmalıdır. Müsabiqədə 8-10 yaş arası uşaqlar iştirak edə bilərlər. Nağıllar üçün mövzu məhdudiyyəti yoxdur, sehrli nağıllarla bərabər, real, maraqlı və şən uşaq hekayələri da qəbul olunur. Nağılın sonunda müəllifin adı, soyadı, yaşı, oxuduğu məktəb, sinif qeyd edilməlidir.

Müsabiqənin şərtlərinə cavab verən nağıllar kitabxananın rəsmi səhifəsində yerləşdirilir. Qaliblər münsiflər heyəti tərəfindən seçilir. Əlavə olaraq, oxucular tərəfindən ən çox bəyənilən 3 yazının müəllifinə həvəsləndirici mükafatlar verilir. Nəticələr yanvar ayının sonunda elan edilir.




## Səhnəcik

Kitabxananın oxu zalında “Nənələr və babalar günü” qeyd olunur. Uşaqlar burada müxtəlif şeir və mahnı kompozisiyaları ilə çıxış edirlər. Tədbirin keçirilməsinin əsas məqsədi nənə və babaların uşaqlar üçün çəkdiyi əziyyəti qiymətləndirmək, onların diqqətdən kənarda qalmadığını göstərmək, eyni zamanda uşaqlara gələcəkdə də bu hörməti qoruyub saxlamağı aşılamaqdır. Aparıcılar səhnəyə daxil olur.

**Aparıcı:** Salam dəyərli qonaqlar!

Balaca dostlarımız sizlər üçün bir birindən gözəl çıxışlar hazırlayıblar. İndi isə vaxt itirmədən onları səhnəyə dəvət edək.

*Birincilər "Turp" hekayəsini səhnələşdirirlər.*

**Aparıcı:** Biri var idi, biri yox idi... Bir gün Baba bir turp əkdi və dedi:

**Baba:** Böyü, böyü, turpum, şəkər ol, möhkəm ol!

**Aparıcı:** Günlər keçdi, Babanın turpu böyüyüb çox böyük bir turp oldu. Baba turpu çıxarmağa gəldi, dartdı-dartdı, çıxara bilmədi.

**Baba:** Ən yaxşısı gedim Nənəni çağırım. Bəlkə, o, mənə turpu çıxarmağa kömək edə bildi.
**Aparıcı:** Baba nənəni köməyə çağırdı. Nənə babanı, baba turpu, dartdılar, dartdılar çıxara bilmədilər.
**Nənə:** Ay Kişi, bacara bilmirik. Gözlə, gedim nəvəmizi çağırım. Mənim ağıllı nəvəm bizə kömək edə bilər.
**Aparıcı:** Nənə nəvəni köməyə çağırdı. Nəvə nənəni, nənə babanı, baba turpu dartdılar, dartdılar, çıxara bilmədilər.
**Nəvə:** Nənə, Baba bəlkə Toplanı çağırım? İnanıramki, o bizə kömək edəcək.
**Aparıcı:** Nəvə Toplanı köməyə çağırdı. Toplan nəvəni, nəvə nənəni, nənə babanı, baba turpu dartdılar, dartdılar, çıxara bilmədilər.
**Toplan:** Bizə bir tək Məstan kömək edə bilər. Gedim onu çağırım.
**Aparıcı:** Toplan Məstanı köməyə çağırdı. Məstan Toplanı, Toplan nəvəni, nəvə nənəni, nənə babanı, baba turpu dartdılar, dartdılar, çıxara bilmədilər.
**Məstan:** Mən birini tanıyıram. Bu dəfə o turpu mütləq çıxaracağıq.
**Aparıcı:** Məstan siçanı köməyə çağırdı. Siçan Məstanı, Məstan Toplanı, Toplan nəvəni, nəvə nənəni, nənə babanı, baba turpu dartdılar, dartdılar Və çıxardılar...

Bu səhnəciyin ərsəyə gəlməsinə görə kitabxana rəhbərliyinə, uşaqlara, tədbir təşkilatçılarına dərin təşəkkürümüzü bildiririk.



Tədbirin növbəti hissəsində isə kiçikyaşlıların nənə-babaya aid hazırladıqları şeirləri dinləyək. Daha gözəl görüntü yaranmağı üçün isə uşaqlar nənə-baba obrazında səhnəyə gəlir.

**I iştirakçı** Teymur Elçin. “Can nənəm”

Qucağında, nənə, sən,

Layla dedin mənə sən.

Mənim mehriban nənəm,
Əziz nənəm, can nənəm.

Böyümüşəm, nənə, mən,
Qoy tutum əllərindən.

Mənim mehriban nənəm,

Əziz nənəm, can nənəm.

**II iştirakçı**

Əyyub Məmmədov.  “Zəhmətkeş babam”

Babam hər il bostanda,
Çoxlu tərəvəz əkir.
Görürəm asan deyil,
Xeyli əziyyət çəkir.

Məhsul vaxtı sahədə,
Kələm, xiyar bol olur.
Biz tərəvəz yığanda,
Yeşiklər barla dolur.

Babamın zəhmətini.
Heç vaxt unutmaram mən.
Ona kömək etməmiş,
Kənddən qayıtmaram mən.

**III iştirakçı**    Solmaz Şirin.  “Nənəm və mən”

Nənəmi çox sevirəm,
Canım kimi əzizdir.
Hər nə desə, edirəm,
Hər bir sözü ləzizdir.

Allahıma şükür ki,
Oxşamışam nənəmə.
Böyümüşəm axır ki,
Yetirəm bir dənəmə.

Həm gedirik gəzməyə,
Həm ev işi görürük.
Qoymayıram bezməyə,
Gül-çiçəklər dəririk.

Oxşayıram nənəmi,
Saçlarını hörürəm.
O da sevir çox məni,
Gözlərindən görürəm.

**IV iştirakçı** Səyadulla Kərimli. "Baba nağıl danışdı"

Baba nağıl danışdı,
Balaca nəvəsinə.
Nəvə qulaq asırdı,
Əl qoyub çənəsinə.

Baba danışdıqca o,
Haldan-hala düşürdü.
Gah sevincdən gülürdü,
Gah da çox düşünürdü.

Birdən sıçrayaraq o,
Söylədi ki,ay baba,
Gəl gedək adamyeyən,
O divləri qırmağa…

**V iştirakçı** F.Sahib. "Hamının nənəsi"

Nənəmi sən də
Gəl yaxşı tanı.
Mənim nənəmtək
Bir nənə hanı?
Sevir böyüklər,
Uşaqlar onu.
Sevir dəcəllər,
Qoçaqlar onu.
Əgər çağırsan,

Ay can! – söyləyib
Dinəsidir o.
Təkcə mənim yox,
Elə hamının
Nənəsidir o.

**VI iştirakçı** Ələmdar Quluzadə. “Babam qocalıb..”
Babam məni öyrədib,
Alışmışam zəhmətə,
Qırmızı almaları
Toplayıram səbətə.
Əriyin budağına,
Bircə-bircə minmişəm,
Armudu dərməyi də
Babamdan öyrənmişəm
Mən ənciri, heyvanı
Nərdivanla yığıram,
Gilasa, gilanara
Pişik kimi çıxıram.
Babam bu ildən mənə
Daha demir balaca.

## Sual-Cavab

Kitabxanın kiçik oxu zalında 8 fevral Nənələr və Babalar günü ilə əlaqədar sual-cavab etmək olar. Metodist uşaqlar üçün bir-birindən maraqlı suallar hazırlayır. Həmin sualları sıra ilə uşaqlara ünvanlayır.

1. Nənələr və Babalar günü nə zamandır?
   **Cavab:** 8 fevral
2. Nənə sözündə neçə sait var?
   **Cavab:** 2 sait

3. Baba sözündə neçə samit var?
   **Cavab:** 2 samit
4. Nənəyə aid hansı mahnıları bilirsiz?
   **Cavab:** Can Nənə, Nənəm evdə qalıb tək və s.
5. Babalara aid hansı nağılları bilirsiz?
   **Cavab:** Baba və Nəvə, Nənələr və babalar, Turp nağılı və s.
6. Kim Nənə və ya Babaya aid şeir söyləyə bilər?
   **Cavab:**
   Babam hər il bostanda,
   Çoxlu tərəvəz əkir.
   Görürəm asan deyil,
   Xeyli əziyyət çəkir.

   Allahıma şükür ki,
   Oxşamışam nənəmə.
   Böyümüşəm axır ki,
   Yetirəm bir dənəmə.
7. Nənə və Babanıza həmin gün hansı hədiyyələri vermək istəyərsiz?
8. Nənə və Babanızı hansı davranışınız ilə sevindərə bilərsiz?
9. Nənə və Babanızla hara səyahət etmək istəyərsiz?
10. Dərslərinizdə köməklik üçün nənənizə, yoxsa babanıza müraciət edirsiniz?

## Metodistin uşaqlarla söhbəti

Metodist kiçik oxu zalında uşaqlarla söhbət edir. Uşaqların istəyi ilə onlara “Qırmızı Papaq”ın nağılını danışır:

Biri var idi, biri yox idi, bir kənddə balaca bir qız var idi. Bu qız elə qəşəng idi ki, daha dünyada ondan yaxşısı yox idi. Anası onu həddən artıq sevir, nənəsi isə anasından da artıq istəyirdi.

Nəvəsinin anadan olduğu gün nənəsi ona bir qırmızı papaq bağışlamışdı. O vaxtdan bəri qız hara getsəydi, özünün təzə, yaraşıqlı qırmızı papağını başına qoyub gedərdi, qonşular da onun barəsində beləcə deyərdilər:

— Bax, Qırmızıpapaq gəlir!

Bir dəfə anası qutab bişirdi və qızına dedi:

— Qırmızıpapaq, get nənənin yanına, bu qutabları və bir küpə yağı ona apar, özü də gör necədir, yaxşıdırmı.

Qırmızıpapaq yığışıb o biri kəndə, nənəsinin yanına getdi.

Qız meşə ilə gedirdi, birdən qabağına bir boz Qurd çıxdı.

Qurd istədi Qırmızıpapağı yesin, ancaq cəsarət eləmədi, çünki yaxınlıqdan odun doğrayanların baltasının tappıltısı gəlirdi. Qurd dodaqlarını yalayıb qızdan soruşdu:

— Hara gedirsən, ay Qırmızıpapaq?

Ancaq Qırmızıpapaq meşənin ortasında dayanıb qurdlarla danışmağın necə qorxulu olduğunu hələ bilmirdi. O, Qurdla salamlaşıb dedi:

— Nənəmin yanına gedirəm, bu qutabları və bir küpə yağı da ona aparıram.

— Nənən uzaqdamı olur? — deyə Qurd soruşdu.

Çox uzaqda olur, — deyə Qırmızıpapaq cavab verdi. — Odur bax, o kənddə, dəyirmanın dalında, qıraqdakı birinci evdə.

Qurd dedi:

— Yaxşı, elə mən də sənin nənənə baş çəkmək istəyirəm. Mən bu yolla gedim, sən də bax, o biri yolla get. Görək hansımız tez gedib çatarıq.

Qurd bunu deyib bütün qüvvəsini toplayaraq ən yaxın yolla qaçdı.

Qırmızıpapaq isə ən uzaq yolla getdi. O arxayın-arxayın gedir, orada-burada dayanıb çiçək yığır və dəstə bağlayırdı.

O hələ dəyirmana çatmamış, Qurd gəlib nənənin evinə çatdı və qapını döydü:

— Tıq… tıq!

— Kimsən? — deyə nənə soruşdu.

Mənəm, nəvən Qırmızıpapağam, — deyə Qurd incə səslə cavab verdi, — sənə qonaq gəlmişəm, qutab və bir küpə yağ gətirmişəm.

Nənə bu zaman xəstə idi, yorğan-döşəkdə yatırdı. O, elə bildi ki, gələn doğrudan da Qırmızıpapaqdır, odur ki, qışqırıb dedi:

— Bala, ipi tut dart, qapı açılar!

Qurd ipi tutub dartdı, qapı açıldı. Qurd nənənin üstünə atılıb elə o saatca onu uddu. Qurd çox ac idi, çünki üç gün idi heç bir şey yeməmişdi.

Sonra qurd qapını bağlayıb nənənin yerində uzandı və Qırmızıpapağın gəlməsini gözlədi. Çox keçmədi ki, Qırmızıpapaq gəlib qapını döydü:

— Tıq… tıq!

— Kimsən? — deyə Qurd soruşdu.

Qurdun səsi kobud və xırıltılı idi.

Qırmızıpapaq əvvəlcə qorxdu, sonra fikirləşdi ki, yəqin nənəsinə soyuq dəyib, səsi tutulub, ona görə də belə danışır. Qımıızıpapaq dedi:

— Mənəm, nəvənəm, sənə qutab və bir küpə yağ gətirmişəm.

Qürd öskürüb bir az incə səslə dedi:

— Bala, ipi tut dart, qapı açılar!

Qırmızıpapaq ipi dartan kimi qapı açıldı. Qız evə girdi. Qurd yorğanı başına çəkib dedi:

— Qızım, qutabları qoy stolun üstünə, küpəni qoy yerə, özün də gəl mənim yanımda uzan. Yəqin ki, yol gəlib yorulmusan.

Qırmızıpapaq Qurdun yanında uzanıb soruşdu:

— Nənə, əllərin niyə belə böyükdür?

— Sən yaxşı-yaxşı qucaqlamaq üçün, mənim balam.

— Nənə, qulaqların niyə belə böyükdür?

— Yaxşı eşitmək üçün, mənim balam.

— Nənə, gözlərin niyə belə böyükdür?

— Yaxşı görə bilmək üçün, mənim balam.

— Nənə, bəs dişlərin niyə belə iridir?

— Belə səni tez yemək üçün, mənim balam! Qırmızıpapaq nəfəsini çəkməyə macal tapmamış, kinli Qurd qızın üstünə atıldı, ayaqqabıları və qırmızı papağı ilə birlikdə onu uddu.

Ancaq xoşbəxtlikdən elə bu zaman odun doğrayanlar çiyinlərində baltaları evin yanından keçirdilər. Onlar səs-küyü eşitdilər, tez yüyürüb evə girdilər və Qurdu öldürdülər. Sonra da Qurdun qarnını yarıb Qırmızıpapağı, onun dalınca da nənəni sağ və salamat çıxartdılar.

## Mahnı müsabiqəsi

Kitabxanada mahnı müsabiqəsi keçirmək məqsədəuyğundur. Öncədən kitabxananın rəsmi səhifəsində elan yerləşdirilir.
6-12 yaş arası uşaqlar üçün nəzərdə tutulmuş müsabiqədə nənə-babalara aid mahnıların olması mütləqdir. Sonda ən gözəl mahnını ifa edən uşaqlara hədiyyələr veriləcək. İlk 3 yerin sahibinə kitabxana tərəfindən bir-birindən maraqlı kitablar təqdim olunacaq.. İndi isə sizə bəzi mahnı nümunələri təqdim edirik.

**“Can nənə”**




Baxdı nənə, güldü mənə

Baxdı nənə, güldü mənə

Can nənə, can nənə, can nənə

Can nənə, can nənə, can nənə

Sevir məni, mən nənəmi

Sevir məni, mən nənəmi

Can nənə, can nənə, can nənə

Can nənə, can nənə, can nənə

https://www.youtube.com/watch?v=x7SNkOilR6c

**“Sağıcıdır Mənim Nənəm”**

Sağıcıdır Mənim Nənəm.

Köməkçisi mənəm, mənəm.

Mən badyanı gətirirəm,

Nənəmə tez yetirirəm.

Nənəm sağır inəkləri,

Badyada süd köpüklənir.

Köpük südün ağ üzündə.

Muncuq-muncuq yağ üzündə.

Xallı inək, qaşqa inək,

Varmı bu cür başqa inək?!

Qaşqa inək naxırdadır,

Göy yoncası axurdadır.

Sağıcıdır Mənim Nənəm.

Köməkçisi mənəm, mənəm.

## Şeir müsabiqəsi

Kitabxanın kiçik oxu zalında şeir müsabiqəsi keçirmək olar. Şeiri ən düzgün intonasiya ilə söyləyən oxucu qalib olacaq. Müsabiqənin əsas şərti söylənilən şeirlərin nənə, baba mövzusunda olmasıdır. Sonda qalibə maraqlı şeir kitabları hədiyyə olunacaq. Müsabiqədə qalib şeir:

Bircə anda göyləri
Tutdu qara buludlar
Yağış yağdı, nə yağdı,
Çimdi çiçəklər, otlar.
Dedim qaçım gizlənim,

Gördüm mələyir quzu,
Boylanır hər tərəfə,
Kömək diləyir quzu.
Onu tövləyə saldım
Evə qaçmaq istərkən
Eyvandan boylanaraq
Nənəm qışqırdı birdən:
-Paltarlar islanıbdır,
Kömək eylə mənə sən.
Dedim: indi yığaram,
Heç darıxma nənə sən.
Yığdım paltarları da,
Dedim: tez qaçım gərək.
Gördüm körpə cücələr
Məndən istəyir kömək.
İslanıbdır necə də,
Sığınıb bir-birinə.
"Kiş-kiş", "kiş-kiş" edərək
Onları saldım hinə..
Göyləri dəstə-dəstə
Tutdu qara buludlar.
Yağış yağdı, nə yağdı,
Çimdi çiçəklər, otlar.
Dağların sinəsindən
Gör necə sellər axdı...
Quzu mənə tövlədən,
Cücələr hindən baxdı.
Nənəm "sağ ol" söylədi,
Elə bildi yoruldum.
Paltarlar islanmadı,
İslanan bir mən oldum.

Tofiq Mütəllibov

## Nağıl saatı

Hamımızın sevimlisi Gülzar nənə kitabxanamıza təşrif buyurub. Nağıl otağında kitabxana rəhbərliyi tərəfindən nağıl saatı təşkil olunur. Gülzar nənə uşaqlara "Nənə və Nəvə" nağılını danışır:



Əziz balalar, sizlərə çox maraqlı nağılı danışmaq istəyirəm. İndi isə yerinizi rahatladın və diqqətlə dinləyin. Elə isə başlayaq:

Biri vardı, biri yoxdu, bir nənə vardı. Nənə sehrli bir meşənin yaxınlığındakı daxmada yaşayırdı. Nəvələri Çiçək və Göyçək tez-tez nənəyə baş çəkməyə gəlir, həm də meşədə gəzir, güllərdən çələng toxuyurdular.

Hər dəfə nəvələr gələndə nənə çox sevinərdi, təndir qalayıb qızlara toyuq bişirərdi. Çox qocaldığından təndirə çətinliklə əyilir, əyiləndə də çətinliklə qalxırdı. Amma bununla belə çalışırdı ki, nəvələri üçün dadlı yeməklər bişirsin.

Bu dəfə də nənə eşitdi ki, nəvələri gəlir. Tez durub təndiri qaladı, nəvələri üçün dadlı-duzlu, ləzzətli bir toyuq qızartdı. Uşaqlar bilirdilər ki, nənə qızardan toyuğun dadından doymaq olmur.



Nənə bilirdi ki, uşaqlar yoldan gəliblər, yaman acdırlar. Ona görə də toyuğu pəncərənin qarşısına qoydu ki, tez soyusun. Sonra süfrəni qəşəng bəzədi. Hamı həvəslə süfrə başına keçdi. Nənə toyuğu gətirməyə getdi. Amma nə görsə yaxşıdır? Toyuq yox idi!

- Aman! - deyə nənə qışqırdı. Səhərdən əziyyət çəkib, toyuq bişirmişəm, kim isə onu oğurlayıb.

Uşaqlar yerlərindən dik atıldılar, elə bildilər nənə həyətdə canavar görüb. Nənəyə yaxınlaşıb soruşdular:

- Nənə, nə oldu sənə?

Nənə uşaqları sakitləşdirdi:

- Mənim gözəl balalarım, mənim çiçək balalarım, mənə heç nə olmayıb, oturun, indi toyuğunuzu gətirəcəyəm.

Uşaqlar sakitləşdilər. Oturub gözləməyə başladılar. Nənə isə sakitləşə bilmir, toyuğu axtarırdı. Elə bilirdi ki, toyuğu harasa qoyub, yadından çıxıb. Həyəcandan əl-ayağı əsirdi. Toyuğu tapa bilmirdi ki bilmirdi.

Nənə toyuğu axtarmaqda olsun, gəlin görək, qızarmış toyuğun başına nə gəlmişdi?

Yaxınlıqdakı qayanın başında iki dost qartal yaşayırdı.

Qartalın biri o birinə dedi:

- Gəl, bir günlüyə uçub gedək uzaqlara!
- Niyə, yenə də nəvələr gəlir?
- Hə, gəlirlər!
- Nədən bildin?
- Nənə təndiri qaladı.

- Aman, təndiri qaladısa, yenə dadlı toyuq ətri göyə qalxacaq, ağzımızın suyu axacaq. Hazırlaşaq, başqa yerə uçaq!

- Uçaq, uçaq!

Qartallar nənənin damının üstündən uçanda nə görsələr yaxşıdır? Qıpqırmızı qızardılmış toyuq pəncərənin qarşısında, ətri, dadlı buxarı havaya qalxır. Qartallar bir-birinə baxıb şığıdılar pəncərəyə, toyuğu bir göz qırpımında caynaqlarına alıb bir anda qayanın başında oldular.



Bu vaxt tülkü də özünü yetirdi qayanın başına. Qartalların yuvalarından uçmasını görüb fikirləşdi ki, ya qartalların balalarını yesin, ya da yuvalarından yeməyə bir şey oğurlasın. Elə təzəcə qalxmışdı ki, gördü qartallar qayıtdılar, caynaqlarında da qıpqırmızı, ətirli bir toyuq. Tülkü bilmədi neyləsin ki, toyuqdan o da yesin, ona görə də hiyləyə əl atdı.

- Siz bir yerdə yemək yeyirsiniz?

- Biz həmişə yeməyi bir yerdə yeyirik!

O biri qartal da onun sözünü təsdiqlədi:

- Nə tapırıqsa, aramızda bölüşdürürük. Biz əsl dostuq!



Tülkü qartala yaxınlaşdı:
- Sənin əsl dost saydığın heç bilirsən səndən nələr danışır?
Avam qartal təəccüblə soruşdu:
- Nə danışır?
- O, hər yerdə danışır ki, səndən acgözü yoxdur, əziyyətlə yem tapır, sən də hamısını yeyib, ona imkan vermirsən dadına baxsın.
- Ola bilməz, inanmırsan, sən göylərdəsən, yerdə olanlardan xəbərin var? Get, ilandan, dovşandan, canavardan, qabandan soruş!
O biri qartal darıxıb soruşdu:
- Nə pıçıldaşırsınız orda?
Tülkü bu dəfə onun qulağına pıçıldadı:
- Yadda saxla! O kəs ki sənə xəyanət edir, dalınca danışır, o kəslə heç vaxt dostluq etmə, çörək kəsmə! Ondan sənə heç vaxt dost olmaz!
- Kim mənə xəyanət edib?
- Sənin dost bildiyin bu qartal! Hələ sən də onunla bir yeməyə hazırlaşırsan? Görəsən sənin dalınca o sözləri deyib, nə üzlə bir süfrədə oturub səninlə yemək yeyəcək?



Tülkü bir anda mehriban dostların arasını necə vurdusa, onları necə dalaşdırdısa, elə bir mərəkə qopdu ki, elə dava başladı ki, qartallar bir-birinin üstünə cumdular, bir-birlərinin qanlarına qəltan elədilər, lələkləri göydə uçdu, səsləri qayalara əks-səda verdi. Tülküyə də elə bu lazım idi. Bir göz qırpımında toyuğu götürüb meşəyə qaçdı. Sərin bir yer tapıb toyuğu taxtanın üstünə qoydu ki, onu ləzzətlə yesin. Taxta nə taxtaydı? Yelləncək idi. Uşaqlar meşəyə odun yığmağa gələndə onu düzəltmişdilər ki, yellənsinlər. Yelləncəyin bir tərəfində oturanda o biri tərəfi qalxırdı. Tülkü toyuğu təzəcə taxtanın bir tərəfinə qoymuşdu ki, qartallardan biri guppultu ilə taxtanın o biri tərəfinə düşdü.



Bu vaxt nə baş versə yaxşıdır? Sehrli meşələrdə hər şey baş verir. Heyvanlar da insanlar kimi danışır, hətta süpürgələr də təyyarə kimi göyə qalxır.

İndi gəlin nağılımızın gerisinə qulaq asaq...

Qartal yelləncəyin bir tərəfinə düşən kimi o biri tərəf elə göyə qalxır ki, toyuq düşür düz nənənin pəncərəsinin qarşısına. Hə, inanın!

Bu o vaxt idi ki, nənə qızarmış toyuğu hər tərəfdə axtarmışdı. Tapa bilməyib yorulub oturur. Uşaqlar onun başının üstünü kəsdirib deyirlər:

- Nənə, bəs deyirdin bizə toyuq bişirmisən, bəs niyə vermirsən yeyək?

Nənə hirsindən ağlaya-ağlaya dedi:

- Sizə toyuq qızartmışdım, pəncərəyə qoymuşdum ki, soyusun, oğurlayıblar!

Uşaqlar məəttəl-məəttəl bir-birlərinə baxdılar. Nənəni sakitləşdirməyə çalışdılar:

- Nənə, narahat olma, biz heç ac deyilik, toyuğu, yəqin, harasa qoymusan, yadından çıxıb, biz indi axtarıb taparıq!

Nənə bir az da bərkdən ağlamağa başladı. Uşaqlar nə qədər etdilərsə, onu sakitləşdirə bilmədilər. Başladılar toyuğu axtarmağa. Amma heç axtarmağa ehtiyac da olmadı. Pəncərəyə boylanıb toyuğu görəndə sevincək qışqırdılar:

- Nənə, nənə, bax, toyuq ordadı.

Hətta istədilər desinlər: "Nənə, o boyda toyuğu nə əcəb görməmisən?" Amma demədilər. Çünki Çiçək və Göyçək nənələrini çox sevirdilər. Düşündülər ki, yəqin, nənələri qocalıb, gözləri zəifləyib, toyuğu görməyib.

Nənə yerindən qalxdı. Pəncərəyə tərəf gəlib gördü ki, toyuq pəncərənin qarşısındadır. Fikirləşdi ki, yəqin, qocalıb, gözləri görmür. Fikirləşməyə vaxt yox idi, çünki sevimli nəvələri ac idilər. Nənə sevincək toyuğu süfrəyə gətirdi. Çiçək və Göyçək ləzzətlə yemək yeyib nənəyə "sağ ol" dedilər. Amma nənə hələ də fikirliydi. "Görəsən toyuğu kim aparmışdı, niyə aparmışdı, bəs niyə qaytarıb

gətirdi?". Nənə sehrli meşədə çox hadisələr görmüşdü, amma belə hadisəylə birinci dəfə idi ki, rastlaşırdı. Uşaqlar təzəcə yeməklərini yeyib qurtarmışıdlar ki, nənə təzədən ağlamağa başladı. Soruşdular:

- İndi nə olub sənə nənə, indi niyə ağlayırsan?

- Mən toyuğu çox dadsız bişirmişəm?



- Nənə, çox dadlıydı, niyə elə deyirsən?

Nənə ağlaya-ağlaya dedi:

- Toyuğu kimsə aparmışdı yesin, xoşuna gəlməyib, qaytarıb gətirib.

Uşaqlar güldülər:

- Ay nənə, ağlama, toyuq çox dadlıdır!

Nənə uşaqlara inandı. Çox sevindi, nəvələrini qucaqladı. Nənənin isti qucağında Çiçək və Göyçəyin yadına ata-analarının dediyi söz düşdü:

- Qocalar uşaq kimi olurlar!

Axı uşaqlar sehrli meşədə olanlardan xəbərsiz idilər, ona görə belə düşündülər.

- Belə uşaqlar fikirləşirəm nağılımı bəyəndiz. Növbəti dəfə sizlərə başqa nağıllarımdan danışacağam.

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı:**


**Rəcəbov, Oqtay**. Anam, nənəm, bir də mən : [Not] : mahnı toplusu. - Bakı : Şirvannəşr, 2004. - 24 s.

**Köseoğlu, Engin**. Can nənə . - Ankara : Diyanət İşlər Başqanlığı, 2003. - 87 s.

**İsabəyli, Q**. Cin : Nağıl-povest. - Bakı : Şur və Cik-Cik, 1993. - 32 s.

**Aslan, Davud**. Ağ göyərçinim : Poeziya. - Bakı : Gənclik, 1994. - 64 s.

**Əhməd, Vüqar**. Anam mənim : Poeziya. - Bakı : Araz, 2002. - 24 s.

**İsrafilli, Elsevər Elxan oğlu**. Sözlə açdım ürəkləri : Şeirlər. - Bakı : Təfəkkür, 2003. - 40 s.

**Yusifoğlu, Rafiq**. Sevdalı sabahlar : Şeirlər və poema. - Bakı : Şirvannəşr, 2007. - 240 s.

**Elçin.** Kukla, yoxsa Aysu. - Bakı : Azərbaycan, 1998. - 48 s.

**Cırtdan** : 4-7 yaşlı uşaqlar üçün. - Bakı : Altun kitab, 2008. - 10 s.

**Bakıxanova, Afət Allahverdi**. Sona xanım. - Bakı : Təhsil, 2005. - 152 s.

**Munis, Gülarə**. Söylə mənə, ay nənə!. - Bakı : MBM, 2008. - 72 s.

**Dilsuz.** Duz dağı / Dilsuz. - Bakı : Beşik, 2008. - 18 s.

**Ana! Ana! Ana!** : Antologiya (şeirlər toplusu). - Bakı : Nurlan, 2006. - 528 s.

**Qoğal**. - Bakı : Çaşıoğlu, 2009. - 8 s.

**Tülkü və dolça** / red., tərc.ed. R. Soltanqızı, rəs. N. Abdullayeva. - Bakı : Çaşıoğlu, 2009. - 8 s.

**Turpun nağılı** / red., tərc.ed.R. Soltanqızı, rəs. N. Abdullayeva. - Bakı : Çaşıoğlu, 2009. - 8 s.

**Cırtdan** / red., tərc.ed. R. Soltanqızı, rəs. N. Abdullayeva. - Bakı : Çaşıoğlu, 2009. - 8 s.

**Qırmızıpapaq** / red. R. Soltanqızı ; rəs. N. Abdullayeva. - Bakı : Çaşıoğlu, 2009. - 8 s.

**Mütəllibov, Tofiq**. Kim islandı yağışda : Poeziya / T. Mütəllibov ; rəs. E. Cabbarov. - Bakı : Altun Kitab, 2009. - 11 s.
**Rəcəbov , Oqtay**. Uşaq bağçalarında mart bayramları ilə əlaqədar ssenarilər, şeir və musiqi nümunələri / O. Rəcəbov , S. Almuradova, G. Məmmədova ; red. İ. İskəndərli. - Bakı : Mütərcim, 2009. - 172 s.

**Mahnılar** / rəs.: E. Cabbarov, S. Eyvazova. - Bakı : Altun Kitab, 2010. - 11 s.

**Qarabağlı, Telman**. Sağ ol günəş!. - Bakı : Gənclik, 1971. - 12 s.

# Babam Şirin, Nənəm Nabat

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərmin Qədəmullazadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**